*Maarifçi realizm dövrü*

# Qafqazın II şeyxülislamı axund Fazil İrəvani

**Lütviyyə Əsgərzadə**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Annotasiya.** Müsəlman mədəniyyətinin mərkəzlərindən biri olan İrəvanda dünyaya gələn Fazil İrəvani, yalnız İrəvanda, Qafqazda deyil, Şərqin elmi və dini ictimaiyyəti arasında böyük hörmət və nüfuz sahibi olmuşdur. Mənbələrdə həyatı və şəxsiyyəti, islami bilik və ideyalarının təbliği, ictimai və siyasi fəaliyyətindən epizodik məlumat verilsə də, elmi və bədii yaradıcılığı geniş araşdırmaya cəlb edilməyib. Dövrünün geniş və hərtərəfli biliyə malik ziyalısı, qiymətli kitabların müəllifi olan Fazil İrəvaninin elmi və bədii yaradıcılığı öz tədqiqatçılarını gözləməkdədir. İslam dünyasının ən qədim Əl-Əhzər universitetində təhsil alan, həyatı Azərbaycan-İran-İraq və Misirlə bağlı olan Fazil İrəvaninin “Qızılgül və Bülbül” povestindən başqa elmi əsərləri əsasən, ərəb dilində yazılıb.
Məqalədə, böyük şəxsiyyət, görkəmli ədib, alim, siyasi və ictimai xadim Fazil İrəvaninin təhsil mühiti – Azərbaycan-İran-İraq-Misir izlənilir, fəaliyyəti, elmi və bədii yaradıcılığı araşdırılır.
**Açar sözlər:** Fazil İrəvani, alim, filosof, ictimai və siyasi xadim, elmi və bədii yaradıcılığı

**Məqalə tarixçəsi:** göndərilib – 11.06.2021; qəbul edilib – 29.06.2021

# Akhund Fazil Iravani, the second Sheikh-ul-Islam of the Caucasus

**Lutviyye Esgerzade**
Doctor of philological sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Abstract.** Fazil Iravani who was born Born in Yerevan, one of the centers of Muslim culture was revered not only in Yerevan and Caucasus but also among the scientific and religious community of the East. Although in the sources is provided episodic information about his life, personality, propaganda of Islamic knowledge and ideas, social and political activities, his scientific and literary activities have not been widely studied. The scientific and artistic creativity of Fazil Iravani, educated man of his period with extensive and comprehensive knowledge and author of valuable books, is waiting for its researchers. Fazil Iravani studied at Al-Azhar University and his life was connected with Azerbaijan-Iran-Iraq and Egypt. His scientific works except the novel "The Rose and The Nightingale" are mainly written in Arabic.
In the article is dealt with great personality, prominent writer, scholar, political and public figure, Fazil Iravani’s educational environment – Azerbaijan-Iran-Iraq-Egypt; and his activities, scientific and artistic creativity is studied.
**Keywords:** Fazil Iravani, scholar, philosopher, political and public figure, scientific and artistic creativity

**Article history:** received − 11.06.2021; accepted − 29.06.2021

## Giriş / *Introduction*

XVIII əsrdə İrəvan xanlığının, XIX əsrdə İrəvan quberniyasının mərkəzi olmuş İrəvan şəhəri, dövrünün mədəniyyət mərkəzi olmuş, Azərbaycana, bütövlükdə Şərqə böyük şəxsiyyətlər bəxş etmişdir. Hələ XVII əsrdə Evliya Çələbi "Səyahətnamə" əsərində bu qədim yurd yerimizdən bəhs edərək yazırdı: "Rəvanda qazı, molla, hörmətli şeyx, kələntər, daruqə, münşi, yasavul ağası, qorçubaşı, eşikağası, dizçökən ağa, yeddi mehmandar və kəndxuda vardı" [3, s.54]. İrəvanın keçmişdə "üləma, fazil, şüara" şəhəri olduğunu görkəmli ədəbiyyatşünas alim Firidun bəy Köçərli vurğulayır: "Şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, fazil və şüəra olub, Axund Molla Məhəmməd İrəvani kimi böyük alim və müctəhidlər yetiribsə də, axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır. Elm və mərifət əshalı varsa da, onların ədədi (sayı) avama nisbət çox azdır, yoxluq mənziləsindədir" [7, s.202; 23, s.22]. Eyni zamanda, "Elm və mərifət əshalının" azalma səbəbi 1828-ci il Türkmənçay, 1829-cu il Ədirnə müqavilələrinin şərtlərinə görə, Rusiyanın təkidi ilə İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülərək məqsədli şəkildə əsasən, Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ ərazilərində məskunlaşdırılması, ermənilərin çarizmin hər cür qayğı və dəstəyi ilə əhatə olunmaları, XIX əsrin ikinci yarısında Cənubi Qafqaza erməni köçünün növbəti mərhələsinin gerçəkləşməsi ilə erməniləri bölgədə XIX əsrin sonu – XX əsrin əvvəllərində bir güc halına gətirilməsini" qeyd edir. Müəyyən tarixi faktlar və şərtlər səbəbindən İrəvanda "Elm və mərifət əshalı" azalsa da, dünyada İrəvani nisbəsi ilə məşhurlaşan böyük şəxsiyyətlər çoxdur. "Şəhri-İrəvan"da doğulan "üləma, fazil və şüəra"lar harada təhsil almalarına, harada yaşamalarına baxmayaraq, "İrəvani" nisbəsini götürərək həm özlərini, həm də vətənləri İrəvanı məmnunluqla təqdim etmişlər. Şərq elm tarixində "İrəvani" nisbəsi ilə məşhurlaşan şəxsiyyətlər var; məşhur rəssam və nəqqaş, bir çox əsərləri Sankt-Peterburqda-Ermitajda saxlanılan Mirzə Qədim İrəvani (1825-1875), alim və həkim Hacı Süleyman ibn Salman Qacar İrəvani, alim Əbdülqasim ibn Mirzə Məhəmməd, məşhur həkim və filosof Mirzə Əbdülqasım və oğlu Ayətullah Molla Əbdülkərim İrəvani və s. Bu adların siyahısını istənilən qədər artırmaq olar. Bu məşhur şəxsiyyətlərdən biri də görkəmli alim, filosof, ictimai və siyasi xadim Şeyxülislam Fazil İrəvanidir.

Fazil İrəvani yalnız Qafqazda deyil, Şərqin dini ictimaiyyəti arasında böyük hörmət və nüfuz sahibi olmuşdu. Adı bir çox mənbələrdə; [9, s.21;10, s.79-80; 15; 16; 19, s.44, 49; 12, s.357-360] keçən, həyatı və şəxsiyyəti, islami bilik və ideyaların təbliği sahəsindəki fəaliyyəti haqqında məlumat verilən Fazil İrəvani XVIII əsrdə yaşamış böyük din xadimi, dövrünün geniş və hərtərəfli biliyə malik ziyalısı və Qafqazın II şeyxülislamı olub. XIX əsrin ortalarında elmin inkişafı müsəlman mədəniyyətinin mərkəzlərindən biri olan İrəvanda da daha çox elmi-teoloji istiqamətdə idi. Bu sahədə, əsasən ruhanilər fəaliyyət göstərirdi. Ənənəvi olaraq elmi-teoloji istiqamətdə öyrənilən fəlsəfə, məntiq, fiqh, əxlaq və s. sahələr üstünlük təşkil edirdi ki, bu yalnız İrəvana deyil, bütövlükdə müsəlman Şərqinə aiddi. Şərqdə olduğu kimi, İrəvan elmi mühitində də ənənəvi elmlərin öyrənilməsi ilə, əsasən müctəhidlər məşğul idilər. Dövrün məşhur müctəhidlərindən olan Fazil İrəvaninin İrəvanın ruhani ziyalıları içərisində xüsusi yeri olmuşdur.

## Əsas hissə / *Main Part*

**Fazil İrəvani** Bütöv adı Ayətullahu'l-uzma Molla Məhəmməd ibn Məhəmməd Baqir olan, Fazil İrəvani olaraq məşhurlaşan alim qədim Azərbaycan şəhəri İrəvanda 1782-ci ildə [10, s.42; 12, s.357], bəzi mənbələrə görə, 1817-ci ildə [14, s.113; 6] anadan olmuşdur. İlk təhsilini İrəvanda, mədrəsədə almışdı. 20 yaşında ikən ali dini təhsil almaq üçün Misirə gedərək buradakı yalnız müsəlman Şərqində deyil, dünyada məşhur olan "Əl-Əzhər" Universitetində təhsil almışdır. Bəzi mənbələrə görə, "o, əvvəlcə Kərbəla şəhərinə yola düşərək, təhsilinin birinci mərhələsini burada keçirmiş, Kərbəlada Ayətullah Seyid İbrahim Qəzvininin dərslərində iştirak etmişdir. Çox keçmədən yüksək istedada malik olduğundan üsul və fəlsəfədə böyük müvəffəqiyyətlər qazanmışdır. Başqa tələbələrin uzun müddətdə oxuduğu dərsləri Fazil İrəvani qısa müddətdə və layiqincə başa

vurmuşdur. Bu şəhərdə yaşadığı 4 il ərzində fiqh və üsuli-fiqh elmlərinin incəliklərinə yiyələnən Fazil İrəvani, öz dövründə cəfəri məhzəbinin elm paytaxtı sayılan Nəcəfi-Əşrəfə köçür" [16], burada böyük müctəhidlərin dərslərində iştirak edir. Uzun illər boyu məşhur İslam alimlərindən Ayətullah Şeyx Murtəza Ənsari, Ayətullah Şeyx Həsən Kaşiful-Qita, Ayətullah Şeyx Məhəmməd Həsən Nəcəfi ("Cəvahirul-kəlam" kitabının müəllifi) və s. öyrənir. Üsul və fiqh dərslərini ustadı Ayətullah Şeyx Ənsaridən almaqla yanaşı, eyni zamanda bu kitabları tədris etməyə başlayan alimin şöhrəti qısa müddət ərzində hər tərəfə yayılır. Tələbələr hər tərəfdən onun dərsində iştirak etmək üçün axışırlar. Ayətullah Şeyx Ənsari dünyasını dəyişdikdən sonra Fazil İrəvani zəmanəsinin müctəhidi olan Seyid Hüseyn Kuhkəməri Təbrizinin dərslərində iştirak edir və ictihad, şəri hökmləri Quran, hədis və digər mənbələrdən əldə edib bəyan edən ali rütbəli ruhani" [17, s.99] məqamına çatır. "Şeyx Həsən Kaşifu'l-Qita "Cəvahiru'l-kəlam" kitabının müəllifi Şeyx Məhəmməd Həsən İsfahani Nəcəfi və müctəhidlərin şeyxi Mürtəza Ənsari kimi elm nəhəngləri Fazil İrəvaninin səylərini lazımi istiqamətə yönəldərək, onun bacarıqlı müctəhid kimi yetişməsinə köməklik göstərməsi haqqında məlumatlar tarixçi, siyasətçi və şair Yəhya Dövlətabadinin "Məfaxer-e Azərbaycan" əsərinin. I cildində, 243, 357, 408-səhifələrində [21, s.177-178], Doktor Əqiqi Bəxşayişinin, Böyük Hacağanın fikirlərində də öz əksini tapır: Yəhya Dövlətabadi Ayətullah molla Məhəmməd İrəvani haqqında yazır: "Hicri-qəməri tarixi ilə 1281-ci ildə şeyx (Mürtəza) Ənsari dünyadan köçür və onun ölümündən sonra görkəmli şəxslərin hamısı ortaya öz iddiasını qoyaraq, onun yerinə keçmək istəyir. Əlbəttə, bu elmi dairənin tələbələrinin də rəis seçkisinə müdaxilə etmək hüququ var idi. Onlar əsasən türklərdən ibarət idilər. Hər qrup hövzə rəisinin onlardan olmasına çalışırdı. Göstərilən vəzifəyə isə iki namizəd vardı – bunlardan biri Ağa Seyid Hüseyn Kuhkəməri, digəri Molla Məhəmməd İrəvani idi. Belə olan halda Hacı Seyid Hüseyn birinci, İrəvani ikinci rəis olur. Ancaq çox keçmədən Hacı Seyid Hüseyn dünyasını dəyişir. Beləliklə, Molla Məhəmməd İrəvani birinci rəis və Şeyx Məhəmməd Həsən ikinci rəis seçilir" [21, s.177-178]; Ayətullah Molla Məhəmməd ibn Məhəmməd Bağır İrəvani-Nəcəfini böyük fəqih, əxlaq sahibi, fiqh sahəsində hövzənin ən nüfuzlu şəxslərindən biri" kimi təqdim edən doktor Əqiqi Bəxşayişi yazır: "O, görkəmli müctəhidlərdən biri olmaqla, elmi, zəkası, natiqliyi sayəsində fazil şəxslər arasında birinci yerdə dayanırdı. İrəvani hicri-qəməri tarixi ilə 1232-ci ildə İrəvanda dünyaya göz açmış, ibtidai təhsil aldıqdan sonra İraqa köçmüşdü. Əvvəl Kərbəlada mərhum Seyid İbrahim Qəzvinidən dərs almış, sonra dörd il sərasər fiqh və fiqh üsulunu öyrənmişdi. Sonralar Nəcəfül-əşrəfə mühacirət edərək uzun müddət həmin şəhərdə yaşamış, tədris və təlimlə məşğul olmuş, müasirləri arasında Fazil İrəvani kimi şöhrətlənmişdi. Ayətullah Seyid Hüseyn Kuhkəməri vəfat edəndən sonra zamanın mərcəyi-təqlidi təyin olunmuş, bütün Azərbaycan və Qafqaz müsəlmanlarının şəri məsələlərlə bağlı problemlərini həll etmişdir. O, Şeyx Tusi məscidində camaat namazına durar, bütün alim və tədqiqatçılar onun hüzuruna gələrdilər. O, idarəetmə fənninin bilicisi şeyx Murtəza Ənsarinin, ənvarül-fiqh sayılan şeyx Həsənin və məntiq elminin ustadı kimi tanınan şeyx Məhəmməd Həsənin yanında oxumuşdu. Şeyx Ənsari və şeyx Məhəmməd Həsən ona ictihad icazəsi vermişdi" [21, s.177-178]; yenə həmin mənbədə mərhum Böyük Hacağa yazır: "O, zəvabət (idarəetmə), məntiq və s. dərslərdə iştirak etsə də, əllamə şeyx Murtəza Ənsarinin mühazirələrinə daha çox vurulmuşdu. Seyid Kuhkəmərinin vəfatından sonra o, mərcəyi-təqlid oldu. Onun öz xətti ilə yazılan "Kitabül-bey-ül istidlali" əsərini oğlu Şeyx Mahmudun yanında gördüm" [21, s.177]. Hətta "Fazil İrəvani təhsilinin son mərhələsində yalnız Şeyx Ənsarinin dərslərində iştirak edirmiş. Yaxın Şərq mənbələrində; "Reyhanətu'l-ədəb" kitabında onun haqqında yazılır: "Şeyx Ənsari və Seyyid Hüseyn Kuhkəməridən sonra Nəcəf elm hövzəsində tədris və dini rəyasət ona verildi (Elmi hövzə şiə alimləri tərəfindən yaradılan dini mədrəsələr məcmusudur. Bu mədrəsələrdə ənənəvi dini fənlər, o cümlədən ərəb dili qrammatikası, təfsir, fiqh, üsul, məntiq, fəlsəfə və digər dərslər keçirilir) və o, bilik sahiblərinin müraciət mənbəyi oldu. Onun məqul və mənqul elmlər sahəsindəki mütəxəssislik və əhatəliliyini heç kim inkar etmirdi. O, Hindistan, İran, Türkiyə, Qafqaz və Rusiyada böyük şöhrətə malik idi və əksər şiələrin mərcəi-təqlidi sayılırdı. Fazil İrəvani Nəcəf şəhərindəki Şeyx Tusi məscidində camaat namazına imamlıq edirdi. Deyilənlərə görə, bu namazlar həddən artıq izdihamlı keçirmiş" [15; 16].

Rizvan Rəhimovun "Azərbaycan alimlərinin həyatı" kitabında [15; 16] verilən mənbələrdə; Mahmud Təyyar Marağinin "Mərzdarani-fəqahət" [s.182]; Məhəmmədtəqi Vaizeyn Quminin "Buluğil-Əmani" [s.214-285]; Məhəmməd Əli Müdərris Təbrizinin, "Reyhanətul-ədəb" [cild 4, s.279]; Məhəmmədtəqi Himmətul-vaizeyn Quminin, "Xandani irəvani" [s.115-117] ensiklopedik alimin şəxsiyyəti, elmi, kitabları və yetişdirdiyi tələbələr haqqında bilgilər verilir. Mahmud Təyyar Marağinin "Mərzdarani-fəqahət" kitabında [s.182] yazılır: "Nəcəfi-Əşrəfdə onun çıxışlarını rəğbətlə qarşılayır və dərslərini lentə yazırdılar. Alimin elmi məqamı o qədər yüksəlmişdi ki, o dövrün mərcəyi-təqlidlərindən biri olan Ayətullah Şeyx Məhəmməd Həsən Mamaqanidən şəri suallar soruşulanda buyurardı: "Nə qədər ki, Fazil İrəvani həyatdadır, bizlərdən şəri suallar soruşmayın. Bu cür şəxs olan yerdə bizim fətva verməyimiz düzgün deyil" [17; 18]. Mərhum Ayətullah Xiyabani isə özünün "Üləmayi-müasirin" adlı kitabında yazır: "Dostlarımdan biri deyirdi: Nəcəfi-Əşrəfə getmişdim. Axşam üstü şəhərə daxil oldum və Fazil İrəvaninin pişnamaz olduğu camaat namazında iştirak etdim. Ziyarətə gələnlər namazı qılıb qurtardıqdan sonra onun dövrəsinə yığışıb müxtəlif şəriət məsələləri soruşmağa başladılar. Ağa da əlindəki təsbehlə zikr edə-edə onların suallarına qulaq asırdı. Elə ki, hamı sualını verib qurtardı, Ayətullah Fazil İrəvani onların hamısına bir-bir cavab verdi. Bundan sonra təzədən təsbehi götürüb zikr etməyə başladı" [15; 16]. Məhəmməd Əli Müdərris Təbrizinin, "Reyhanətul-ədəb" kitabında [cild 4, s.279; s.214-285] Fazil İrəvaninin 30 tələbəsinin adı çəkilir; Ayətullah əl-uzma Şeyx Hadi Tehrani; Ayətullah əl-uzma Seyid Əbul Həsən Əngəci Təbrizi; Ayətullah əl-uzma Seyid Əbdül Hüseyn lari Dezfuli; Ayətullah əl-uzma Mövla Məhəmməd Əli Naxçıvani Nəcəfi; Ayətullah əl-uzma Mirzə Sadiq Ağa Müctəhid Təbrizi; Ayətullah Şeyx Əbulqasim Ordubadi; Ayətullah Şəhid Əbdülqəni Badkubeyi; Ayətullah Şeyx Baqir Dezfuli Kazimi;Ayətullah Seyid Məhəmmədtəqi Taliqani; Ayətullah Mirzə Cəfər Qəzvini Hilli; Ayətullah Molla Əhməd Kuze Kətani Təbrizi; Ayətullah Mirzə Məhəmməd Həsən Nuri Təbrizi; Ayətullah Mirzə Əbdülvəhhab Təbatəbai Təbrizi; Ayətullah Hacı Şeyx Cavad Qarimi Əbhəri Zəncani; Ayətullah Səid Rəzi Savici Təbrizi ("Müstənbit" ləqəbi ilə məşhur olub); Ayətullah Şeyx Məhəmməd Hirzuddin Nəcəfi; Ayətullah Seyid Əhməd Bəhbəhani Hairi; Ayətullah Mirzə Həsən Əliyari Təbrizi; Ayətullah Ağa Seyid Əli Höccət Kuhkəməri Təbrizi; Ayətullah Şeyx Məhəmməd Həmədani Cəvəlani; Ayətullah Seyid Məhəmməd Hüseyn Qəzvini Hilli; Ayətullah Seyid Məhəmməd Şərif Fəzəvi Şirazi; Ayətullah Mirzə Hidayətullah Qəzvini; Ayətullah Şeyx Əbdülhüseyn Meşkini ("İmam" ləqəbi ilə məşhur olub); Ayətullah Seyid Əbdüssəməd Cəzairi Şüştəri; Ayətullah Şeyx Məhəmməd Baqir Bircəndi Raini Xorasani; Ayətullah Mirzə Əli Əkbər Müctehid Ərdəbili; Ayətullah Mövla Məhəmməd Mehdi Nəbabi Məraqi Hairi; Ayətullah Mirzə Yəhya; Ayətullah Mirzə Məhəmməd Baqir İrəvani Nəcəfi" [15]. İslam maarifini səylə genişləndirən Fazil İrəvani yalnız tələbələr yetişdirməklə kifayətlənməmiş, öz övladlarını da elmə, təhsilə yönləndirmişdir. F.İrəvaninin yüksək elmi ilə tanınan oğlanları; Şeyx Cavad İrəvani Nəcəfi, Şeyx Cavad İrəvani Nəcəfinin oğlu Ayətollah Şeyx Məhəmmədtəqi İrəvani və Ayətollah Şeyx Məhəmmədbaqir İrəvani mükəmməl ruhani təhsili almış, üsul və fiqh sahəsində məşhur alimlərdəndir" [15]. Həmçinin "Alimin qardaşı Şeyx Əli Əsgər İrəvani də Nəcəf və Kərbəla şəhərlərində məşhur alimlərdən dərs almışdır. Şeyx Əli Əsgərin oğlu Höccətül-İslam Hacı Şeyx Musa Nəcəfi İrəvaninin də zəmanəsinin islam alimləri arasında özünəməxsus böyük məqamı olmasından bəhs edilir" [14, s.113].

Məşhur islam alimi özü kimi onlarla alim və müctəhid yetişdirmiş, yetişdirdiyi alim, müctəhid və müqəllidləri İslam aləmində böyük nüfuz qazanmışdı. "Tanınmış alim Hacı Mirzə Məhəmməd, Təbrizin o dövrdəki şeyxülislamı [22, s.95] və bütün Qafqazda və İranda məşhur olan alim və tarixçi Mühəqqiq İrəvani də Fazil İrəvaninin yetirmələrindəndir.

Dərin dini biliyi ilə yanaşı, iman, əxlaq, mənəviyyat və təqva (ruh və nəfsin hifz edilməsi) baxımından da çox yüksək səviyyədə olan Fazil İrəvaniyə "Hindistan, Türkiyə, Qafqaz, İran və Rusiyadan şəriət vergiləri (xüms, zəkat) göndərilirdi" (Rəhimov). Dünya malından çox elmə, əxlaqa, mənəviyyata önəm verən, zahidanə həyat tərzi yaşayan bu imanlı ziyalı ona göndərilən xüms-zəkat pullarını da son qəpiyinə kimi dini elmləri öyrənən tələbələrə və digər lazımlı işlərə sərf etmişdir. Fazil İrəvani öz müasirləri, xüsusilə, müctəhidlər arasında böyük nüfuza malik olmuşdur.

Beləliklə, təhsil və tədqiqatlardan, həmçinin Şeyx Mürtəza Ənsari, Şeyx Məhəmmədhəsən İsfahani Nəcəfidən ictihad icazəsi adıqdan sonra Fazil İrəvani Nəcəf elm mərkəzində çalışmış, dərs deməyə başlamışdı. İslam aliminin verdiyi fiqh (Fiqh-İslamda şəri hökmləri, vacib, halal, haram və digər bu kimi məsələləri öyrənən elm) və üsuli-fiqh (üsul-qaydalar, prinsiplər deməkdir. Fiqhi araşdırmalarda lazım olan qayda-qanunlar toplusudur. Şəri hökmləri əldə edərkən fiqhi dəlillərdən-Quran, sünnə, icma və ağıldan istifadə yollarını öyrədir) dərsləri yüksək qiymətləndirilmişdir. Bütün bunlar Fazil İrəvaninin şöhrətinin və tələbələrinin daha da artması, sonralar məşhur alim kimi tanınacaq bir çox din xadiminin yetişməsində əvəzsiz xidmət göstərməsi [22, s.95] ilə nəticələnmiş, Şimali və Cənubi Azərbaycandan dini təhsil almaq məqsədi ilə Nəcəfə gedən tələbələrin çoxu Fazil İrəvaninin dərslərində iştirak etmişdi.

Alim Fazil İrəvani mərcəi-təqlid kimi daha da məşhurlaşmışdı. “Mərceyi təqlid-təqlid yeri, təqlid mənbəyi deməkdir. Başqa müsəlmanlar tərəfindən təqlid edilən müctəhidlərə deyilir” [17, s.100]. Əsasən, “Ali dərslər fiqh və üsul elmlərinə aid olub, müctəhid və mərceyi-təqlidlər tərəfindən tədris edilir. Müctəhid bu dərslərdə qabaqcadan apardığı tədqiqatlardan istifadə edərək hər hansı bir fiqhi məsələ və yaxud üsul elminə aid qanunla bağlı müxtəlif nəzərləri tənqidi baxımdan araşdırır, aldığı nəticəni və şəxsi rəyini bəyan edir. Bu dərslər tələbələrə uyğun elmlərin tədqiqat metodunu öyrətməklə yanaşı, həm də onları tədqiqata sövq edərək bir növ müctəhidliyə hazırlayır. Sözügedən mərhələni Fransa təhsil sisteminin doktorantura mərhələsilə eyniləşdirmək olar” [17, s.101].

Ümumiyyətlə, ömrü boyu islam elmi, islam fəlsəfəsi, islam hüququ ilə məşğul olan mütəfəkkirin həyatından bəhs edən biblioqraflar onu “füru və üsul elmlərini (İslam hüququ üsul və füru olaraq iki mühüm elmi sahəyə ayrılır. Üsul, islam hüququnun əsas və ikinci dərəcəli mənbələrindən hökm çıxarma metod və qaydalarından bəhs edən bir elmdir. Füru isə hər hansı bir üsul metodundan istifadə edərək həm hüquqi, həm də ibadətlərə aid ortaya çıxan hökm və dini təlimatlardan ibarətdir) bütöv əhatə edən, məqul (ağıla və məntiqə əsaslanan) və mənqul (rəvayətə əsaslanan) elmlərin bilicisi” kimi qiymətləndirmişlər.

Misirin Əl-Əhzər universitetinin məzunu, uzun müddət İraqda (Nəcəf), İranda (İsfahan və Təbriz) axundluq etmiş, Qafqazın II Şeyxülislamı Fazil İrəvani şərəfli ömrünü İslam maarifini, islam fəlsəfəsini öyrənməyə və öyrətməyə həsr etmiş, Şərq tarixi və dini elmlərə aid bir neçə risalənin müəllifi kimi Şərqdə böyük şöhrət qazanmışdır. Mənbələrdə [15; 19; 14; 21] Fazil İrəvaniyə aid edilən 15-ə yaxın kitabın; “İctimaul-əmri vən-nəhy” (üsuli-fiqh, ərəb dilində), “Əl-ictihadu vət-təqlid” (üsuli-fiqh, ərəb dilində), “Əhkamul-xələli fis-səlat” (fiqh, ərəb dilində), “Əl-istihsab” (üsuli-fiqh, ərəb dilində), “Əs-salatul-bəraət” (üsuli-fiqh, ərəb dilində), “Ət-tadu vət-təracih” (üsuli-fiqh, ərəb dilində), “Haşiyətun əla qəvaidil Əllamə” (fiqh, ərəb dilində), “Haşiyətun əla təfsiril-beyzavi” (təfsir, ərəb dilində), “Kitabul-əcza” (üsuli-fiqh, ərəb dilində), “Haşiyətun əla Rəsaili Şeyx Ənsari (üsuli-fiqh, ərəb dilində), “Üsulul-fiqh” (üsul, ərəb dilində), “Höcciyyətul-məzənnə” (üsuli-fiqh, ərəb dilində), “Haşiyətun əla qəvaidi şəhid Əvvəl” (fiqh, ərəb dilində), “Əl-məkasibul-mühərrəmə” (fiqh, ərəb dilində), “Haşiyətun əla məkasibi Şeyx Ənsari” (fiqh, ərəb dilində) adı çəkilsə də daha çox “Beyzavi təfsirinə haşiyə”, “İctihad və təqlid”, “Üsulu'l-fiqh”, Şeyx Mürtəza Ənsarinin “Məkasib” və “Rəsail” kitablarına haşiyə, “İstishab” və s. daha çox əsərləri məşhurdur” [14, s.113; 16]. Görkəmli alimin “qədim Şərq tarixinə, dini fəlsəfəyə, müsəlman dünyasının milli adət-ənənələrinə aid yazdığı qiymətli məqalələri təkcə İranda deyil, digər Yaxın Şərq ölkələrində də müəllifinə böyük nüfuz qazandırmışdır [13, s.194]. Əsərləri bir çox dillərə tərcümə olunmuş, Təbriz, Peterburq, Berlin, Parisdə çap olunmuş Fazil İrəvaninin “Paklıq kitabı” adlı əsəri Cənubi Azərbaycanın məşhur din xadimi Molla Əhməd Güzəkünaninin tapşırığı ilə 1883-cü ildə Təbrizdə fars dilində Xəttat Məhəmməd Təbrizi tərəfindən çap olunmuşdur.

XIX əsrə aid olan türk, gürcü və erməni mənbələrindən məlum olur ki, Fazil İrəvaninin “Tarixi-İrəvan” adlı əsəri də (əlyazması) olmuşdur. İrəvan və Qərbi Azərbaycan əyalətlərinin tarixinə, Azərbaycan xanlıqlarının fəaliyyətinin tarixi tədqiqatına həsr edilmiş əlyazmanın təəssüf ki, bu günə qədər hansı arxivdə saxlandığı məlum deyil. “Bəlkə də əlyazma indiki İrəvan arxivlərində ya məhv edilib, ya da hansısa erməni müəllifinin adına dəyişdirilərək nəşr edilmişdir. Qeyd edək ki,

tarixi-elmi əsərlərin müəlliflərinin dəyişdirilməsi faktları günümüzdə də ermənilər tərəfindən davam etdirilməkdədir” [19, s.46]. Bədii yaradıcılıqla məşğul olmuş Fazil İrəvaninin gənc yaşlarında İrəvanda, Azərbaycan dilində yazdığı “Qızılgül və bülbül” povesti çox məşhurdur.

Şeyxülislamlıq fəaliyyəti Fazil İrəvanı 20 yaşında ayrıldığı vətəninə, doğma şəhəri İrəvana bir də 45 yaşında qayıtmış, buradakı Göy Cami məscidində baş axund kimi fəaliyyətə başlamış, “dini mədrəsə açan Fazil İrəvani İslam fəlsəfəsini öyrətməklə çoxlu sayda din xadimləri yetişdirmişdi” [19, s.46]. Bu zaman artıq Azərbaycan Türkmənçay müqaviləsi ilə ikiyə bölünmüşdü. Bəzi mənbələrdə “Rusiyanın qələbə qazanmasının, İranın isə məğlubiyyətə uğramasının səbəblərindən biri kimi rusların Qafqazın müsəlman din xadimlərinin xidmətindən məharətlə istifadə etməsi göstərilir” ki, o dövrdə az da olsa belə din xadimləri vardı. Hacı Fuad Nurullayevin “Şeyxülislamlıq zirvəsi: Hacı Allahşükür Paşazadə” kitabında yazılır: “Belə ki, İran əhalisini ruslara qarşı müqavimətdən çəkindirən Təbriz müctəhidi Mir Fəttah Təbatəbainin tutduğu mövqeyi yüksək qiymətləndirən çar Rusiyası onu Tiflisdə Qafqaz müsəlmanlarının müctəhidi təyin etdi. On yeddi il bu vəzifədə fəaliyyət göstərən Mir Fəttah Təbatəbai müsəlmanlar arasında birlik və dini inanclara sədaqətdən daha çox təriqətləri qızışdırmaqla qarşıdurmalar yaratmağa, Rusiya siyasətinin Qafqazda möhkəmlənməsinə xidmət etdi. Müctəhidliyi dövründə Qafqaz Şeyxülislamı Məhəmmədəli Hüseynzadə ilə tez-tez ixtilaflar yaradaraq onu həm insanlar, həm də hökumət qarşısında hörmətdən salmağa çalışan Mir Fəttah Təbatəbai hətta sünni-şiə qarşıdurması yaratmaqdan da çəkinmirdi. Lakin Tiflisin müsəlman ziyalıları, xüsusilə Rusiya xidmət orqanlarında qulluqda olan alim və ədiblər bütün hallarda Şeyxülislam Məhəmmədəli Hüseynzadəni müdafiə edir, Mir Fəttah Təbatəbainin İslam dininə, eləcə də imperiyanın nüfuzuna “zərbə” vurmasını bildirirdilər. Bütün bunları nəzərə alan Çar I Nikolay 1843-cü ildə Mir Fəttah Təbatəbainin Rusiya təbəəliyindən çıxarılması, ölkədən qovulması və Rusiyaya gəlməsinin qadağan olunması barədə fərman imzaladı. Hətta sonralar Mir Fəttah Təbatəbainin iki oğlu ruslar tərəfindən terror bəhanəsi ilə öldürüldü” [19, s.43]. Məhz Mir Fəttah Təbatəbainin qarşısı alındıqdan sonra 1843-cü ildə dini və dünyəvi elmlərə bələd olan, müctəhid Fazil İrəvani Qafqaz Müsəlmanları Şeyxülislamının müavini vəzifəsinə (Qafqaz müsəlmanları Şiə Ruhani idarəsi sədrinin müavini) dəvət olunur və dəvəti qəbul edir. Qafqaz Müsəlmanları Şeyxülislamının müavini vəzifəsində çalışdığı dövrdə Fazil İrəvani idarənin fəaliyyətini xeyli genişləndirir, işini təkmilləşdirir. Diyarın müsəlman əhalisi ruhani dairələrinə bölünməklə diyarda şəriət məhkəmələri yaradılır. Bütün müsəlmanlara ruhani zümrəsinə daxil olmaq hüququ verilir. İrəvaninin təşəbbüsü ilə ruhanilərə vəzifə maaşları kəsilməklə onlara dövlət məmurları ilə eyni səlahiyyətlər verilir. Beləliklə, əvvələr müctəhidin səlahiyyətində olan qayda-qanunların həyata keçirilməsi şeyxülislama həvalə edilir [11, s.78-80]. 1846-cı ildə Fazil İrəvani Qafqazın Şeyxülislamı seçilir (1847-1862). Fazil İrəvaninin Qafqazın Şeyxülislamı seçilməsi qurumun mövqeyinin möhkəmlənməsinə və fəaliyyətinin gücləndirilməsinə şərait yaradır. “Şeyxülislam İrəvani bir çox qanunları sistemləşdirir, idarənin fəaliyyətinə prokuror nəzarəti ləğv edilir, ən önəmlisi yüksək ruhani şəxslərin təyin edilməsini ruhani idarəsi özü həyata keçirməyə başlayır. Nigah bağlanması və boşanmaların həyata keçirilməsi səlahiyyətləri məscid ruhanilərindən alınaraq daha yüksək savada malik olan axundlara həvalə edilir. Qazıların səlahiyyətlərinə aid məsələlərə geniş yer ayrılır” [11, s.78-80]. “Şeyxülislam Fazil İrəvaninin gərgin əməyi, həmçinin Qafqaz canişini Vorontsovun yanında söz və nüfuz sahibi olması nəticəsində dini məktəblərin açılması və idarə olunması, ruhani adlara yiyələnmək üçün sınaqların həyata keçirilməsi, azyaşlılar üzərində qəyyumluğun təyin olunması, seyid adına iddia edənlərin hüquqlarının müəyyən olunması və bir çox başqa məsələlər dairə qazılarına həvalə edildi. Dairə qazıları isə əsas hesabatlarını şeyxülislama verməklə ona tabe idilər. Şeyxülislama dini məsələlərdə fətva vermək hüququ da məhz Fazil İrəvaninin fəaliyyətinin nəticəsində verildi. Əldə etdiyi uğurlara görə I, II, III dərəcəli “Müqəddəs Georgi” ordenləri ilə təltif edilən Şeyxülislam Fazil İrəvani, həmçinin İran hököməti tərəfindən də yüksək mükafatlara layiq görülmüşdü” [1, s.82; 7, s.46]. İrəvaninin hökumət yanındakı nüfuz və söz sahibi olması, əməyinin qiymətləndirilməsi, şeyxülislamlıq fəaliyyəti dövründə dini idarəyə çoxlu sayda əlavə səlahiyyətlərin alınması canişin Paskeviçi narahat edirdi. Çünki idarənin yaradılması ilə bağlı çar fərmanı olmadığından onu nəinki genişləndirmək, heç yaratmaq belə olmazdı.

Paskeviç hətta şeyxülislamın səlahiyyətlərini azaltmaq, müctəhidliyi bərpa etmək və İrandan yeni müctəhidlər gətirmək təklifləri ilə də çıxış edirdi. Qafqazda İslam dininin imperiyaya xidmət yollarını arayıb-axtaran xüsusi komissiyanın sədri Bulatovun Paskeviçə yazdığı məktubda Şeyxülislamın nüfuzundan əndişəsi açıq-aşkar ifadə edilir: "Zaqafqaziya şiə müsəlman ruhanilərinə rəhbərlik edən, həmçinin şeyxülislam adı daşıyan Məhəmmədəli Hüseynzadə və Fazil İrəvani kimi şəxslər böyük nüfuz sahibidirlər. Onların rəyləri həmdindaşları tərəfindən birmənalı şəkildə qəbul edilir və sözsüz icra olunur. İrandan müctəhidlərin gətirilməsini olduqca uğursuz cəhdlər kimi qiymətləndirirəm" [11, s.82]. "Qafqaz ruhanilərinin idarə olunması" regionda müsəlmanların sıxışdırılması, imperiyanın nüfuz və işğalçılıq siyasətinin möhkəmləndirilməsinə xidmət edən təkliflərin; Ayrıca Zaqafqaziya Müsəlman Ruhaniliyi yaradılması və ruhani şəxslərin fəaliyyətinin yalnız maddi vəziyyətə bağlanması"nın [11, s.83] əleyhinə olan ilk Şeyxülislam Məhəmmədəli Hüseynzadə və Fazil İrəvani bu məsələlərlə bağlı komissiyaya öz təkliflərini bildirirlər. "Vəziyyətin getdikcə gərginləşməsi ilə yanaşı, Şeyxülislam Fazil İrəvaninin istefa verməsindən narahat olan canişin və çar komissiyası güzəştə getmək məcburiyyətində qalsalar da, 1846-cı ildən 1862-ci ilə qədər Qafqazın şeyxülislamı olan Fazil İrəvaninin fəaliyyəti dövründə şeyxülislamla canişinlik arasında narazılıqlar səngimir. Ruhani idarəsinin yaradılması, genişləndirilməsi, əlavə işçilərin qəbulu və yerlərdə şöbələrin açılması ilə bağlı təkliflər həyata keçməsə də etiraz da edilmir. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin yaradılması, habelə idarənin ştat cədvəlinin yeddi nəfərə qaldırılması, işçilərin əmək haqlarının dövlət məmurlarının əmək haqlarının səviyyəsinə çatdırılması kimi səlahiyyətlər yalnız üçüncü Şeyxülislam Əhməd Hüseynzadənin şeyxülislamlığı dövründə, yəni 1872-ci ildə çar fərmanı ilə həyata keçirildi. Qafqazın ilk şeyxülislamının oğlu, Əli bəy Hüseynzadənin babası Əhməd Hüseynzadə təhsilini başa vurub İraqdan Tiflisə geri qayıtdıqdan sonra onun son dərəcə bacarıqlı və savadlı olduğunu görən Şeyxülislam Fazil İrəvani Əhməd Hüseynzadəni yanında işə qəbul edir" [19, s.46]. Özündən sonra bu vəzifəyə layiqli namizəd kimi Əhməd Hüseynzadəni hazırlayan Fazil İrəvani uzunmüddətli fəaliyyətdən sonra, 1862-ci ildə şeyxülislamlıq vəzifəsindən istefa verərək doğma şəhəri İrəvana köçmüşdür.

Qafqazda böyük "nüfuz və söz sahibi" olan Fazil İrəvani Şeyxülislamlıqdan istefa etdikdən sonra da bir çox müşkül sahiblərinin işlərinin həll olunmasına vəsilə olmuşdur: "1871-ci ildə Lənkəranda müəllim işləyən şair Mirzə İsmayıl Qasir, məhkəmə katibi və Sadıq bəy Mehmandarov ağır ehtiyac içində yaşayan əhaliyə şəhərin Forştat hissəsində məskunlaşmış rusların və almanların əkdikləri kartofdan yemələrini məsləhət gördüklərinə görə ruhanilər onların hər ikisinin Lənkərandan qovulması barədə qərar çıxarırlar. Başqa əcnəbi millətlərin becərdiyi kartofu murdar adlandıran savadsız ruhanilər şair Qasiri və hüquqşunas Sadıq bəyi kafir adlandırır və kartofdan istifadəni camaata qadağan edirlər. Mirzə İsmayıl Qasir və Sadıq bəy bu barədə məktubla Qafqaz şeyxülislamı Fazil İrəvaniyə müraciət edirlər. O, qərarı ləğv etməklə, hər iki ziyalının müdafiə edir" [8, s.196]. Dərin elmi biliyə malik olan imanlı ziyalıya müraciət edənlərdən biri də, Azərbaycan tarixinə alim, pedaqoq, şair və musiqişünas kimi daxil olan Mir Möhsün Nəvvab idi.

Musiqi sahəsində, xüsusən muğamlarımızın tədqiqində xüsusi rolu olan Nəvvab, həmçinin Azərbaycan dilində (əski əlifba ilə) yazılmış və nəşr olunmuş yeganə risalənin müəllifidir [18]. Mir Möhsün Nəvvab "Orta əsr muğam nəzəriyyəsinin ənənələrini özündə əks etdirən risaləsində "Orta əsr traktatlarında geniş işıqlandırılmış bud (interval), cins (tetraxord), iqa (ritm) və digər məsələlərə toxunmamışdır. Onun əsərinin əsas istiqaməti praktiki, təcrübi, əməli məqsəd daşımışdır. Bu da əsasən Orta əsrlərdən sonra yazılmış risalələr üçün xas idi. Bu risalələr muğamların öyrənilməsi üçün dərslik kimi də nəzərdə tutulmuşdur" [2, s.4-9). Maraqlıdır ki, Mir Möhsün Nəvvabın risaləsi fars dilində yazılmış və Fazil İrəvaniyə verilən qeyri-adi sualla – epiqrafla başlayır: "... Musiqi elmində məharəti olub, özü xanəndəlik etməyən, müğənniliyi və təğənnini haram sayan bir şəxs elmi məqsədlə musiqidən istifadə etsə, onu yadda saxlasa, tədris etsə, çap etsə, yazsa, satsa, yazıb öz kitabxanasında saxlasa – caizdir, ya yox?" [18]. Fazil İrəvaninin Nəvvaba cavabı belə idi: "Musiqi elmini öyrətmək və öyrənməyin eybi yoxdur, hətta vacibdir. Amma onu təcrübədə işlətmək caiz deyil." Risalədə Fazil İrəvaninin cavabının altında onun möhrünün surəti də verilmişdir [20, s.257]. Mir Möhsün Nəvvab belə bir hörmətli şəxsin imzasını aldıqdan sonra yenə də musiqi

sənətinə və yazdığı əsərə bəraət qazandırmaq məqsədilə risaləni "Ruhani qardaşlarına!" müraciəti ilə başlayır: "Ruhani qardaşların hüzuruna ehtiramla ərz-əhval edir bəndeyi-aciz Nəvvab Mir Möhsün Ağamirzə Qarabaği, o əşxaslar ki iltifat nəzərilə bu fəqərata mülahizə buyuracaqlar, güman ki, bəndeyi-acizin məqsudi bu bəyanətin iqdamından odur ki, onun istemalını caiz və həramiyyətini halal bilirik" [20, s.257]. M.M.Nəvvab "Ruhani qardaşlarına" musiqi elmi ilə "qüdrətli və bacarıqlı" alimlər məşğul olduğunu, bütün dövrlərdə, əsrlərdə onların "elmin ləzzətini dünyanın cəmi ləzzətindən artıq hesab etmələrini" bildirərək qeyd edir: "Bizim də elmiyyədən savayı bir niyyətimiz yoxdur" [2, s.3-8]. Beləliklə, Yaxın Şərqdə o cümlədən Qafqazda söz və nüfuz sahibi olan, şərəfli ömrünü siyasi və ictimai xadim, görkəmli alim və yazıçı olaraq yaşayan, İslam maarifinin çiçəklənməsinə və təbliğinə həsr edən bu böyük şəxsiyyət, eyni zamanda insanların üz tutduğu, məsləhət aldığı alimlərdən idi, deyə bilərik.

Böyük şəxsiyyət, məşhur din alimi, nurlu insan, imanlı ziyalı, Qafqazın II şeyxülislamı Fazil İrəvani uzun ömür sürmüş, 103 yaşında həyatdan köçmüşdür. Fazil İrəvaninin doğum və vəfat tarixləri, dəfn yeri mənbələrdə, fərqli illərdə və fərqli yerlərdə keçir. Doğum yeri İrəvan olan alimin doğum tarixi; İrəvan, 1817 [14, s.113; 12, s.357]; İrəvan, 1782 [7], vəfat tarixi 1888-ci il Nəcəf şəhəri [14], 1889 Nəcəf [12, s.360,16]; 1885, Nəcəf [19, s.42]; Dövlətabadiyə görə, hicri-qəməri tarixi ilə 1306-cı il rəbiüləvvəl ayının 3-də (cümə günü) kimi verilir. Dəyişməyən fakt Fazil İrəvaninin İrəvanda doğulması və 103 yaşında vəfat etməsidir. Verilən tarixləri; 1817-1888 [14, s.113]; 1782-1885 [19, s.48]; 1817-1889 [12, s.360; 16] qarşılaşdırdıqda və bütün mənbələrdə Fazil İrəvaninin 103 yaşında vəfat etməsini nəzərə aldıqda ən uyğun və doğru olan doğum və vəfat tarixlərini 1782-1885-ci illər olaraq qəbul etmək olar.

Adətən görkəmli şəxsiyyətlərin adı vəfatından sonra münasib yerlərə küçə, məktəb, rayon və s. verilir. Sağlığında böyük nüfuz və şöhrətə malik olan Şeyxülislam Fazil İrəvaninin doğulduğu İrəvan şəhərində onun adını daşıyan məhəllə; "Şeyxülislam məhəlləsi" və Karvansaray olmuşdur. "Şeyxülislam məhəlləsi" və Karvansaray uzun illər, münaqişə başlayana qədər bu mötəbər, mübarək din və elm adamının adını daşımışdı.

***Bədii yaradıcılığı***. Görkəmli alim, mütəfəkkir, bir çox dini, tarixi və ədəbi əsərlərin və dini fəlsəfəyə, müsəlman dünyasının milli adət-ənənələrinə aid yazdığı qiymətli məqalələrin müəllifi olan Fazil İrəvaninin zəngin elmi və bədii irsi var. Elmi əsərləri əsasən, ərəb dilində olan əsərləri, xüsusən "Gül və Bülbül"ü bir çox dillərə tərcümə olunmuş, Təbriz, Peterburq, Berlin, Paris və İrəvanda çap olunmuşdur. Fazil İrəvaninin Azərbaycan dilində yazılan "Qızılgül və bülbül" adlı povestinin yayılma arealı genişdir. Əsər müxtəlif illərdə bir neçə dəfə Avropa dillərinə tərcümə edilib. Təəssüf ki, müxtəlif müəlliflərin əsəri kimi. Eyni ildə (1812), eyni vaxtda və eyni şəhərdə - Sankt-Peterburqda 2 kitab çap olunub: "Qızılgül və bülbül haqqında əxlaqi roman" (erməni dilində). Sankt-Peterburqda nəşr edilən "Qızılgül və bülbül" povestinin müəllifi saray müşaviri Xocens Marker Geğamyan göstərilsə də, əsərin müəllifi Fazil İrəvanidir. F.İrəvaninin gənc yaşlarında yazdığı "Qızılgül və bülbül" adlı povestinin taleyi "Tarixi-İrəvan" əsərinə nisbətən uğurlu sayıla bilər, çünki ən azından məhv edilməyib, lakin bir o qədər də başıbəlalıdır. Oğurluğa adətkərdə olmuş ermənilər Fazil İrəvaninin əsərinə də göz dikmiş, əsərin üzünü erməni əlifbası ilə köçürən Xocens Markar Geqamyan özünü əsərin müəllifi kimi təqdim etmişdir. Çox keçmədən, "Qızılgül və bülbül"ü Le Vayya de Floribal fransız dilinə çevirib Parisdə (1826), sonra isə Jözef Fon Hammer alman dilinə çevirərək 1832-1833-cü ildə iki dəfə yüksək tirajla çap etdirir [5]. Dırnaqarası "erməni ədibi" X.M.Geğamyan əsəri öz adına çıxartsa da Avropa və Qafqazda aparılan tədqiqatlar əsərin Fazil İrəvaniyə məxsus olduğunu təsdiqləyir. "Sonradan ermənilər özləri də təsdiq etmək məcburiyyətində qalırlar ki, adıçəkilən əsər Fazil İrəvani tərəfindən yazılmış, Geğamyan isə onu oğurlayıb öz adına çap etdirmişdir [19, s.47]. Digər tərəfdən, fransız tədqiqatçısı Le Vayya de Floribal "Qızılgül və bülbül"ün türk müəllifi Fazil İrəvaninin əsəri olduğunu bildirərək məsələyə aydınlıq gətirmişdir. Sadəcə, Xocens Markar, Fazil İrəvaninin "Qızılgül və bülbül" əsərini erməni və rus dillərinə tərcümə edərək öz əsəri kimi çap etdirmişdir. "Qızılgül və bülbül" əsərinin orijinalı Matenadaranda – Mesrop Maştos adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır" [14, s.147]. "Qızılgül və bülbül"ün əsl müəllifinin Fazil İrəvani olduğu bəlli olduqdan sonra da, ermənilər utanma-

dan, 1950-ci ildə yenə də əsəri erməni [4, s.63] müəllifin əsəri kimi Freznada (ABŞ) çap etdirmişlər. Ancaq həqiqəti gizlədə bilmirlər. "Qızılgül və bülbül" povestinin müəllifinin X.M.Geqamyan yox, Fazil İrəvani olduğunu sonradan ermənilərin özləri etiraf ediblər" [8, s.18;19]. Əsəri xaricdə yaşayan ermənilərin ləhcəsinə çevirib hissə-hissə "Anahit" jurnalında çap etdirən erməni Arşad Çobanyan "Qızılgül və bülbül" povestinin Fazil İrəvaninin olduğunu təsdiqləyib ("Qızılgül və bülbül" əsəri ayrıca bir məqalənin mövzusudur).

## Nəticə / *Conclusion*

Təəssüf ki, əsərinin üzü köçürülüb dəfələrlə Avropada nəşr edilən, erməni-Azərbaycan münaqişəsi başlayanadək adına İrəvanda məşhur "Şeyxülislam məhəlləsi", Karvansaray olan görkəmli ədib, alim, siyasi və ictimai xadim Fazil İrəvaninin adına indiyədək Azərbaycan tarixindən və ədəbiyyatından bəhs edən kitablarda yalnız məlumat verilməklə kifayətlənilmişdir. Mütəfəkkirin elmi yaradıcılığı əsasən ərəb dilində olduğu üçün, aydındır ki, bu iş daha çox şərqşünasların üzərinə düşür. Alban kilsələrini xaç işarələriylə saxtalaşdıran, məzarlarımıza atəş açan, yurd yerlərimizin adını dəyişərək mənimsəyən, Fazil İrəvaninin "Qızılgül və bülbül"ünün üzünü öz əlifbası ilə köçürüb Avropada, Rusiyada dəfələrlə nəşr etdirən, milli mətbəximizə, musiqimizə göz tikən mənfurların oğurluqları bitib-tükənmir. Düşünürük ki, haqq səsimizi dünyaya bildirməli, tədqiqatlardan bizə məlum olan mənbələri həm ölkəmizdə, həm də sərhədlərimizdən kənarda yorulmadan dəfələrlə kitab və məqalələr olaraq işıqlandırmalıyıq. Fazil İrəvaninin "Qızılgül və bülbül" povestinin və ya elmi əsərləri ilə harada və hansı şəkildə qarşılaşacağımızı bilmirik. Yazılan hər bir kitab və məqalə bu hərəkətlərlə rastlaşdığımızda adekvat cavab ola bilər. Düşünürük ki, görkəmli alim, ictimai və siyasi xadim Şeyxülislam Fazil İrəvaninin zəngin elmi irsinin və yaradıcılığının araşdırılması vacibdir və bu sahədəki araşdırmalarımız davam edir.

## Ədəbiyyat / *References*


1. Azərbaycan kitabı (biblioqrafiya). I c., 1780-1920-ci illər. Bakı, 1963.
2. Bayramov T. Muğam ifaçılığı sənətinin formalaşmasında Mir Möhsün Nəvvabın rolu // Konservatoriya jurn., Elmi nəşr. Bakı: Ecoprint, 2017, №3.
3. Çələbi E. Səyahətnamə. Bakı: Elm, 1997.
4. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007.
5. Hammer J.F. Gül u Bülbül, das ist Rose und Nachtigall. Fazli <Kara>
6. Pest, 1834. Universit Landts-Landesbibliothek Sachsen-Anhalt.
7. Sondersammelgebietes Vorderer Orient Rəqəmsal Kitabxanası.
8. Kitabüt-təharət. Müəllifi Fazil İrəvani. Xəttat: Məhəmməd Təbrizi. Təbriz. 1301, (fars dilində).
9. Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., 2 c. Bakı: Elm, 1981.
10. Mehrəliyev E.A. "İrəvanilər", Çaşıoğlu, Bakı, 2000.
11. Məmmədov İ. İrəvan dəftəri. Bakı: Adiloğlu, 2002.
12. Məmmədov E. İrəvandan başlanan yol. Bakı, 2018.
13. Məmmədli H. Qafqazda İslam və şeyxülislamlar. Bakı: MBM, 2005.
14. Məhərrəmov Z. "Fazil İrəvani" kimi tanınan Ayatollaxul-uzma Molla Məhəmməd İbn Məhəmməd Bağır // Filologiya məsələləri, №3, 2014.
15. Məhərrəmov Z. İrəvan ədəbi mühiti (1800-1920-ci illər). Fil.e.d. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş Disser. (Əlyazması hüququnda). Bakı, 2017.
16. Mustafa N.İrəvan şəhəri. Bakı: Red N Line MMC, 2020.
17. Rəhimov N. Alimlər və xadimlər Fazil İrəvani. Fazil İrəvani-İslam Times. islamtimes. org, 2009, Story Code:1033.
18. Rizvan.Net.Azərbaycan alimlərinin həyatı//Ayətullah əl-uzma Şeyx Məhəmməd İrəvani // İslam Marifi jurnalı, 2015.

19. Nəzərli Ş. Nur surəsi. Bakı, 2007.
20. Nəvvab M.M. "Vüzuhül-Ərqam" (Risalə). Bakı: Orucov qardaşları, 1913.
21. Nurullayev H. F. Şeyxülislamlıq zirvəsi: Hacı Allahşükür Paşazadə. Bakı: Nurlar, 2014.
22. Səfərova Z.Y. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm, 1998.
23. Sərdariniya S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Bakı: Zərdabi, 2014.
24. Tərbiyət M. Danışməndani Azərbaycan. Bakı: ADU-nun nəşri, 1987.
25. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı: Oğuz eli, 1999.

## Второй Шейхульислам Кавказа – ахунд Фазиль Иревани

**Лютвия Аскерзаде**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Резюме.** Фазиль Иревани, родившийся в Иреване, – одном из центров мусульманской культуры, завоевал большую известность и авторитет не только в Иреване и на Кавказе, но и среди научной общественности и духовенства Востока. Несмотря на имеющиеся в источниках эпизодические сведения о жизни и личности, популяризацию идей знатока исламской религии, его общественной и политической деятельности, научное и художественное творчество Фазиля Иревани, разносторонне образованного автора ценных книг, не было привлечено к широкому изучению и ждёт новых исследований.
Как и повесть «Роза и соловей», научные труды Фазиля Иревани, получившего образование в старинном исламском университете «Аль-Азхар», жизнь которого была связана с Азербайджаном, Ираном, Ираком, Египтом, написаны в основном на арабском языке.
В статье рассмотрены среда в период учёбы, период жизни в Азербайджане, Иране, Ираке, Египте, научная и творческая деятельность выдающейся личности, знаменитого писателя, учёного, политического и общественного деятеля Фазиля Иревани.
**Ключевые слова:** Фазиль Иревани, учёный, философ, общественный и политический деятель, научная и литературная деятельность